# KEÇƏN İLİN SON GECƏSİ

Maraqlı və dəyərli hekayələr, povestlər və romanlar müəllifi kimi tanınan Anar 1968-ci ilin sentyabr ayında "Keçən ilin son gecəsi" hekayəsi əsasında yazdığı eyniadlı iki hissəli pyesini Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivinə təqdim etdi. Anar hekayəsini sadəcə səhnələşdirməmişdi: onun motivləri əsasında müasir mövzulu orijinal bir pyes -dəyərli bir səhnə əsəri yazmışdı. Anarın, dramaturgiya sahəsində, ilk qələm təcrübəsi olan "Keçən ilin son gecəsi" pyesinin tamaşasını hazırlamaq Ulduz Rəfili Əliyevaya həvalə olundu. Özünün rejissorluq işinə vicdanla, məsuliyyətlə, məhəbbətlə və istedadla yanaşan Ulduz Rəfili Əliyeva teatra gələn gənc dramaturqlarla da çox səmərəli yaradıcılıq işi aparırdı. O, həm də, hazırladığı tamaşaların bədii tərtibatına və musiqisinə də ciddi fikir verirdi. Bu cəhətdən onun "Keçən ilin son gecəsi" pyesini tamaşaya hazırlayarkən müəllif Anarla, bədii tərtibatını vermiş rəssam Sənan Qurbanovla və tamaşanın musiqisini yazmış bəstəkar Emin Sabitoğlu ilə yaradıcılıq işi yaxşı nəticə vermişdi.

İnsana və insanlığa hörmət, övlad və valideyn qarşısında məsuliyyət hissi "Keçən ilin son gecəsi" əsərinin əsas qayəsini təşkil edirdi. Bu fikir, bu ideya hadisələrin lirik-dramatik axarı içərisində, bədii obrazlı şəkildə nəzərə çatdırılırdı. Əsərdəki hadisələr həyati və təbii, süjet xətti aydın idi. Obrazların hər biri öz xarakter cizgiləri, səciyyəvi xüsusiyyətləri ilə seçilirdilər; dil sadə və səlis idi, qulağa xoş gəldiyi kimi, ürəyə də yatımlı idi.

"Keçən ilin son gecəsi" pyesinin mərkəzində ana Həmidə obrazı dururdu, qalan bütün obrazlar bilavasitə və bilavasitə onunla bağlı idilər; əsas hadisələr onun ətrafında cərəyan edirdi. Təbii ki, tamaşanın quruluşçu rejissoru Ulduz Rəfili Əliyeva tamaşada ifaçının mükəmməlliyinə də diqqətlə yanaşmış, Həmidə xala obrazının səhnə şərhini daha geniş miqyasda - həm ideya-bədii, həm tərbiyəvilik, həm də estetik cəhətdən verərək obrazın tutumunu artırmışdı. Şair Əlağa Kürçaylı "Kommunist" qəzetində yazmışdı: "Teatrın yaradıcı kollektivi, xüsusilə tamaşanın quruluşçu rejissoru, əməkdar incəsənət xadimi Ulduz Rəfili Əliyeva və baş rolun ifaçısı Respublikanın əməkdar artisti Firəngiz Şərifova müəllifin fikrini səhnədə elə bir ehtiras, elə bir ustalıqla canlandırmışlar ki, biz özümüzü tamaşa salonundan daha çox bilavasitə iştirakçısı olduğumuz həyatın içərisində hiss edirik. Həmidənin analıq dünyasını daha aydın göstərmək üçün quruluşçu rejissor onu ön plana çəkir, səhnənin irili-xırdalı hər bir detalını, hərəkətini, predmetlərin ümumi ahəngdarlığını bu obrazın açılmasına, bütün parlaqlığı ilə görünməsinə tabe edir. Səhnəyə baxdıqda aydın olur ki, rejissor yaradıcılıq projektorunun işığını Həmidənin üzərinə salmış, bütün diqqətini ana obrazı içərisində cəmləşdirmişdir". Digər bir məqalədə də qeyd olunmuşdu ki, "Tamaşanın quruluşuna gəldikdə demək lazımdır ki, rejissor Ulduz Əliyeva pyesin əsas qayəsini düzgün tapmış, bacardığı qədər onu qabartmış, ana obrazını ön plana çıxara bilmişdir. Rejissor bir sıra epizodlarda səhnə ilə salonu birləşdirir. Nəinki aktyorlar salondan səhnəyə qalxır, həm də salonda dayanır, danışırlar. Səhnəni həyata yaxınlaşdırmaq cəhdi müsbət nəticələnir".

Anarın "Keçən ilin son gecəsi" pyesi sadə süjet xəttinə malik bir əsərdir. Tamaşada da bu sadə süjet xətti realist bir tərzdə, inandırıcı və təsirli bir şəkildə göstərilirdi. Tamaşaçı, hər cür bəzək-düzəkdən uzaq sadə bir ailənin həyatı ilə tanış olurdu. Tamaşanın əvvəlində belə məlum olurdu ki, Həmidə xanım yeni ili keçirmək üçün hazırlıq görür. Qonşusu Səkinə xala ilə söhbətindən bilinirdi ki, onun bütün övladları bu yeni il gecəsini ana ilə birlikdə qarşılayacaqlar. Sevinclə bildirir ki, "Tək deyiləm. Bilmirəm gün hayandan çıxıb, bu gecə uşaqların hamısı evdədir. Onlardan çıxmayan iş". Bəli, həm təəccüb, həm sevinc hissi keçirən Həmidə xala plov qazanı asır, aşı dəmə qoyur. Cəmi bir saatdan sonra övladları ilə birgə yeni il süfrəsi ətrafında oturacaqlar. Yeyib-içəcəklər, deyib güləcəklər, şənlənəcəklər. Ana üçün bundan da böyük sevinc ola bilərmi?! Üstəlik də ananın səkkizinci sinifdə oxuyan oğlu Tofiqin yaşıdları Şamil, Çingiz də gələcəklər. Əgər ana Həmidə icazə versə, onlar bir sinifdə oxuduqları qız yoldaşlarını da dəvət edərlər. Lakin çox keçmədən məlum olur ki, Həmidə ananın övladlarının hər biri müəyyn səbəb üzündən bu yeni il gecəsini evdə qalmağı qərarlaşdırıblar. Ananın böyük oğlu Rüstəm nişanlısı Kamilə ilə küsüşdüyü üçün evdə qalmağı və bütün gecəni yatmağı qərarlaşdırıb. Gözəl səsə malik olan kiçik qızı Dilarə çıxışçılar arasında adı yayılmadığı üçün acıq edib məktəbdəki müşavirəyə get-

mir. Təbii ki, bütün bunlar Həmidə ananın kiçik oğlu Tofiqin narazılığına səbəb olur. Axı sinif yoldaşları qızlar tünlük yerə gəlmək istəmirlər.

Nəhayət, sadə süjet xətti ətrafında baş verən hadisələr axarında vəziyyət təbii şəkildə dəyişir. Övladlar öz arzularına uyğun evdən gedirlər. Ana yeni ili iki yaşlı nəvəsi ilə keçirməli olur. Anar yeni il gecəsində ananın tək qalmasının əsas səbəblərini açıb göstərir. Bu səbəblər sadə olduğu qədər də təbii və qanunauyğundur. Yeni il axşamı nişanlısı ilə küsüşmüş Rüstəm ana Həmidənin təkidi ilə barışıb yeni ili qarşılamaq üçün onlara gedir. "Bilirsən ana... Vasif deyir ki, bizə gəlin. Onun ata-anası hara isə gedirlər. Ta səhərə qədər... Biz özümüz olacağıq... lap tək..." - deyə Tofiq də sinif yoldaşları ilə gedir. Dilarənin sinif yoldaşı - rəfiqəsi Leyla təngənəfəs gəlib xəbər verir ki, "... vallah, direktor bilməyib ki, səni proqrama salmayıblar, biləndə bilirsən necə acıqlandı? Qatıb aləmi bir-birinə. Azadın üstünə elə qışqırdı ki ... Direktor deyir ki, bu saat Dilarə harda olsa, tap gətir, heç onsuz müsamirə olar?" - sözləri "Xeyir, bağışlayacaqsınız. İndi Dilarə matah olub. Lazım olsaydı, əvvəldən proqrama salardılar. İndi görəsən kim gəlməyib, onu əvəz etməyə adam tapmırlar" - deyən Dilarəni yumşaldır, o da məktəbdə keçiriləcək yeni il müsamirəsinə getməli olur. Beləliklə, yeni ili qarşılamaq istəyən ananın övladları icazə ilə müxtəlif yerlərə getməli olurlar. Ana iki yaşlı nəvəsi ilə tək qalır. Xatirələrini vərəqləyir, düşüncələrə dalır, keçmişi, gələcəyi ilə həmsöhbət olur. Beləliklə əsərin sadə süjeti həyati və realist bir mövqedən işləndiyi üçün dərin məna kəsb edirdi. Bu mənanı dərinləşdirən əsas obraz, o vaxt əməkdar artist olan (indi xalq artistidir) Firəngiz Şərifovanın duyaraq yaratdığı Həmidə xala obrazı idi. Həmidə xala Firəngiz Şərifovanın namuslu, qeyrətli, dəyanətli ana obrazı idi. Sadə və mənalı bir həyat sürmüş, ailə səadəti üçün yaşamış, əri Qəzənfərin ölümündən sonra da onun adını uca tutmuş, dörd uşaq tərbiyə edib böyütmüş Həmidə ana. Firəngiz Şərifovanın ifasında həm də dözümlü, xeyirxah, sağlam düşüncəli, səmimi bir qadın idi. O övladlarının hər birini dərindən duyur. Onlara tələbkar münasibət bəsləməklə bahəm, həm də onların sərbəst olmalarına imkan yaradırdı. Həmidə (Firəngiz Şərifova) öz tərbiyəsinin gücünə, əqidəsinə inanırdı. Övladlarının sərbəst hərəkət etmələrinə imkan yaratmaqla yanaşı, həm də nəzərlərini onlardan çəkmir, onları düz yola istiqamətləndirir. Sanki böyük rus tənqidçisi Vissarion Qriqoryeviç Belinskinin "Tərbiyə böyük işdir; o insanın taleyini təyin edir" kəlamına tapınmışdı.

"Keçən ilin son gecəsi" tamaşasında əsas obrazlar Həmidə ana və onun övladlarıdır. Bununla belə tarazlığı saxlamaq xatirinə müəllif, əsərə bu ailədən olmayan poçtalyon Bəşir, Səkinə xala, Çingiz, Şamil, Leyla, Kamilə surətlərini daxil etmişdi. Bunların hər biri ayrı-ayrılıqda öz xarakteri, öz həyat tərzi, öz vərdişi olan canlı insanlardır.

Tamaşadakı maraqlı surətlərdən biri Ziya Mirzəhəsənovun bacarıqla ifa etdiyi Eynəkli kişi (poçtalyon Bəşir) obrazı idi. Yeniyetmələrin hər bir hərəkətinə irad tutan, şübhələnən, adi hərəkətlərini belə cinayət sayan Eynəkli kişi onları tənqid etməkdən çəkinmir, qeyzlənir.

Həmidə ananın böyük oğlu Rüstəm (Firdovsi Naibov) kiçik rol olsa da öz ləyaqəti, düşüncə tərzi, baxışı ilə fərqlənirdi. Rolun ifaçısı Firdovsi Naibov obrazın mərdliyini, təmiz xislət olmasını, təbiiliyini, həyatsevərliyi ilə seçilməsini ön plana çəkirdi.

Səhnəyə bircə dəfə gəlib təxminən 15 dəqiqə orada olan Süleymanı Osman Hacıbəyov tamaşaçıya tam mənasında tanıdırdı. Osman Hacıbəyov obrazın quru, rəsmi, təkəbbürlü cəhətlərini büruzə verirdi. Müdirin evinə tez getmək üçün o, qayınanası Həmidə xanımla danışmağa belə vaxt itirmək istəmirdi. Şərqiyyə Bağırovanın ifasında Gülarə ərinin hikkəsinə, təkəbbürünə dözsə də, qəlbində xoş arzular yaşadan, anaya məhəbbət bəsləyən, ata ocağına hörmətlə yanaşan bir qadın idi. Onun, hələ ata evində olan kiçik bacısı Dilarə Solmaz Qurbanovanın ifasında ərköyün böyümüş qayğısız bir qız idi.

Lirik səpkili psixoloji dram olan "Keçən ilin son gecəsi" Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsinə yeni bir nəfəs gətirməklə yanaşı, həm də teatrın ümumi yaradıcılıq inkişafına təsir göstərdi. Realist yaradıcılıq prinsipləri əsasında yetişən teatrın kollektivi öz ənənəsinə sadiq qalaraq maraqlı bir tamaşa ilə çıxış etmiş oldu. Həyata yeni münasibət, yeni baxış təlqin edən bu tamaşa ilə teatr bədii-estetik təsirini, idraki əhəmiyyətini yüksəltdi.

"Keçən ilin son gecəsi" tamaşaya qoyulan zaman Anar "Gürcü familiyası", "Mən, sən, o və telefon", "Molla Nəsrəddin - 66" povest və hekayələrin, "Torpaq, Dəniz, Od, Səma" bədii filminin ssenari müəllifi kimi tanınmış, öz istedadı, yaradıcılıq səviyyəsi haqqında tam təsəvvür yaratmışdır. "Keçən ilin son gecəsi" pyesi ilə Anar bir yazıçı kimi yaradıcılıq cəhətdən püxtələşdiyini və bir dramaturq kimi özünəməxsus üsluba, yeni estetik prinsiplərə əsaslandığını sübut etmişdi.

***Gülnarə HÜSEYNOVA,***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi***